Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Təcrid vəziyyəti Ermənistanın işğal siyasətini dalana dirəyir - hökumət daxilində çatlar dərinləşir, iqtisadi çöküş xaotik vəziyyət alır və... koronavirus...

**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Ermənistanın qarşıdakı dövr ərzində daha zəif mövqe sahibinə çevrilməsi qaçılmaz hal sayılır. Məsələ burasındadır ki, son vəziyyətin təhlili Ermənistanın çöküş dinamikasının daha intensiv xarakter aldığını üzə çaxarıb. Koronavirus epidemiyası isə, öz növbəsində, prosesin daha dinamik getməsinə rəvac verib.**

Qeyd edilənlərlə ilgili Ermənistanın "politik.am" nəşri yazır ki, ölkəni mümkün çöküşdən xilas etmək üçün hakimiyyət hansısa real siyasət və proqrama malik deyil. Nəşrdə qeyd olunur ki, bugünə qədər acınacaqlı kadr vəziyyəti, anlaşılmaz iqtisadi siyasət, ayrı-ayrı nazirlərin və nazirliklərin birinin digərindən "bixəbər" vəziyyəti, bir sözlə, bu gün hökumət daxilində mövcud olan, demək olar ki, xaotik vəziyyətin "pullu feyklər" ordusunun yaydığı "tüstü örtüyü" ilə görünməz olmasına çalışılırdı: "Pandemiyanın bütün bu acınacaqlı uyuşma qoxusunun havaya səpilməsini sürətləndirdiyini söyləmək olar. Təsadüfi deyil ki, zaman-zaman mətbuat, hətta Ermənistanın və bu hakimiyyətin siyasi həyatı ilə maraqlanan ayrı-ayrı ölkələrin səfirliklərinin və ya super güclərin öz sorğularını keçirməsi və nəticələrdən narahat olması, Paşinyanın söylədiklərini etməməsini qınayan materiallar dərc edir, məcazi mənada "Qız vaxtları" olan reytinqə hələ sahib olmadığını göstərirlər. Hökumət daxilindəkilər də reytinqdə nəzərəçarpacaq dərəcədə azalma olduğunu görürlər. Əlbəttə ki, yaxın günlərin birində Paşinyanın "gəmisinin batacağını" başa düşürlər və o üzdən lazımi anda xilas olmaq üçün batan gəmidən atlaya biləcəkləri "torpaqlar" tapmağı bacarmalıdırlar".

Yazıda yer alan fikirlərə görə, Paşinyanla batmağın heç bir mənası yoxdur:"Bu dövrdə onsuz da komandadakı gizli çatlar daha da dərinləşir və hakim piramidanın bir çox nümayəndəsi ayaqda qalmaq üçün gələcək siyasi tənzimləmə mərhələsində öz yerlərini tapmağa, su üzərində qalmağa çalışır. Bunun özü ümidsizliyə və çaxnaşmaya səbəb olur və dilə gətirilməsə də, yenə də hər şeyə təsir edir. Əlbəttə, Paşinyan da bütün bunları başa düşür. Üstəlik, bu barədə hətta ona məruzə edildiyi də məlum olub. Başqa cür ola da bilməzdi, çünki Vanetsyan və Osipyanla bağlı baş verənlərdən sonra Paşinyan ilkin turda komanda yoldaşlarının etimadını itirdi və hətta mediada yayılan məlumatlara görə, nəzarətin qurulmasını və xüsusi qovluqların tərtib edilməsini əmr edib. Bu nəzarətin daha da gücləndirildiyi deyilir. Axı Paşinyan başa düşür ki, parlament respublikası şəraitində komandanın dağılması onun uğursuzluğuna səbəb ola bilər. Pandemiya dövründə, bəlkə də ağlasığmaz bir şəkildə sərt siyasi addımlar atmayacaq, ancaq mümkündür ki, virusu aradan qaldırdıqdan sonra, əlbəttə ki müvəffəq olsa, vəziyyəti cilovlamağa çalışacaq, çünki pandemiyanı dəf etdikdən sonra başqa bir dünyada və Ermənistanda yaşayacağımız göz qabağındadır. Baş qaldıracaq proseslər Paşinyanın məğlubiyyətini daha da yaxınlaşdıracaq". Yazıda qeyd edilir ki, belə vəziyyətdə Paşinyanın rəqibləri daha da fəallaşaraq, elə baş nazirin yanında yer alanlarla hökumət rəhbərini devirməyə çalışacaqlar. Maraqlıdır ki, yaranmış vəziyyətdə "Qarabağ klanı" Nikol Paşinyanı daha çox hədələməyə başlayıb. Ermənistanın "İrates" nəşri isə yazır ki, Paşinyanın komandasında yer alanların bir çoxu da artıq baş nazirə qarşı olanlarla bir sırada yer almaq niyyətindədir:"Elə bu səbəbdəndir ki, Paşinyan indi daha tez-tez dövlət idarəetmə sisteminin hələ də inqilaba müqavimət göstərməsindən dəm vurur. Əslində, nəinki bütün sahələrdə "inqilab"ın başa çatması, həmçinin dövlət sisteminin fərqli bir məntiqlə işləməyə başlaması Paşinyanı narahat edir. "Mənim addımım" fraksiyasında olduğu kimi, idarəetmə dairələrində də Paşinyanın tərəfdarları yoxdur". Erməni siyasi şərhçi Aram Amatuni də məsələyə bu prizmadan nəzər salaraq bildirir:"Hakimiyyət dəyişikliyindən sonra Ermənistanda formalaşan hakimiyyət bir kollektivlikdir, bəzən bir-birinə zidd olan elementlər toplusudur". Erməni politoloq Armen Badalyan isə bildirir ki, Paşinyanın davranışları onun komanda üzvlərini də bezdirib. Onun sözlərinə görə, Ermənistan Respublika Partiyasının artıq iki ildir hakimiyyətdə olmamasına baxmayaraq, Ermənistan hələ də investisiyalara malik deyil:"Bu durumda Paşinyanın reytinqinin düşməsi təbiidir. Belə vəziyyətdə Paşinyan vəziyyəti lehinə dəyişmək üçün yeni düşmənlər axtarır. İndi bu "düşmən" rolunda onun bəzi komanda üzvləri çıxış edir. Paşinyanın qəzəbinə tuş gələn məmurlar keçmiş hakimiyyəti istəyirlər. Məhz bu fonda da ölkədə yeni hakimiyyt çaxnaşması tamamilə gözləniləndir". Ölkədə açır sosial-iqtisadi durum da əhali tərəfindən Paşinyana dəstəyin daha da azalması ilə müşayiət olunur. Ermənistan Konstruktiv Partiyasının sədri Andreas Qukasyan bildirir ki, yaranmış problemlərin həlli istiqamətində ortaya real iş qoymaq əvəzinə, Nikol Paşinyan sosial şəbəkədə canlı yayıma çıxaraq cəfəng açıqlamalar verir. Qukasyanın sözlərinə görə, Paşinyan ölkənin iqtisadi fəlakətə sürükləndiyini hələ də dərk edə bilmir. Bunu erməni iş adamı Norayr Qevorkyan da xüsusi vurğulayır. O bildirir ki, Ermənistanın iqtisadi həyatı üçün çox vacib olan məsələlərdən baş nazirin xəbəri yoxdur:"Məsələn, cənab Paşinyan hələ də bilmir ki, Ermənistana tranzit baxımından vacib olan Yuxarı Lars keçidində acınacaqlı vəziyyət hökm sürür. Ermənistandan Rusiyaya doğru və əks tərəfə hərəkət edən heç bir yük, heç bir erməni yük avtomobilinə üstünlük yoxdur. Paşinyana ya nə baş verdiyi barədə məlumat verilmir, ya da o hansısa rel iş görmək iqtidarında deyil. Məsələ nə hava, nə də karantindir. Osetiya gömrükçüləri istədiklərini edirlər, hər avtomobildən 10000 rubl istəyirlər ki, pul qazansınlar, kim pul vermirsə və ya az ödəyirsə, günlərlə burda dayanıb qalır, 9 gündür dayanıb burda qalan erməni maşınları var. Demək olar ki, bütün spirtli içkilər yoxlanılır və yoxlama təhdidi altında hər maşından kağız olmadan və heç bir səbəb olmadan bir neçə qutu spirtli alkoqol içkisi götürülür. Ermənistan Respublikasına hörmətsizlikdir, yaşıl dəhliz yoxdur, bu işlə məşğul olunmasa, Ermənistanda durum daha da pisləşəcək". İş adamı vurğulayır ki, Ermənistanın iqtisadi inkişafı adi vətəndaşların həyat səviyyəsinin yüksəlməsinə təsir etmir. Belə vəziyyətdə Ermənistanın təcrid durumunun genişlənməsi isə sadə vətəndaşlara, iş adamlarına, idxal və ixracatla məşğul olanlara, onun fikrincə, əhəmiyyətli dərəcədə pis təsir edəcək. O, vəziyyətdən çıxış yolu olmadığını da bildirib və bu durumda ölkədə sosial narazılığın daha da dərinləşəcəyini vurğulayıb. Beləliklə, həm komandası daxilində ziddiyyət yaşayan, həm də ölkəni dərin böhrana sürükləyən mövcud Ermənistan hakimiyyətinin işğal siyasətinin davam etdirməsi də mümkünsüz sayılır. Bu durumda təcrid vəziyyəti də Ermənistanın işğal siyasətini davam etdirməsini mümkünsüz edir. Bütün bunlar bir daha təsdiq edir ki, Qarabağ münaqişəsinin mövcudluğu və sərhədlərin bağlı olması Ermənistanın durumunu pisləşdirir, iqtisadiyyatını boğaraq onu inkişafdan məhrum edir. Halbuki, belə vəziyyətdə Azərbaycan bütün regional layihələrin aparıcı qüvvəsinə çevrilir. Bununla Azərbaycan və Ermənistanın inkişaf göstəriciləri arasında fərq də artır. Ermənistan üçün yeganə çıxış yolu münaqişənin kompromislər əsasında tezliklə həlli istiqamətində müvafiq addımlar atmasıdır. İndilikdə isə Azərbaycanın Ermənistanı təcrid siyasəti öz müsbət nəticəsini verir. Real vəziyyət həm də onu göstərir ki, təcrid vəziyyətinə düşməsi səbəbindən Ermənistanın ötən dövrdə daxili iqtisadi potensial hesabına deyil, xaricdən verilən ianələr hesabına mövcud olub. Belə ki, son beş ildə xaricdəki fiziki şəxslər Ermənistana 9,8 milyard dollar gətiriblərsə, Ermənistanın dövlət olaraq ixracatı həmin müddət üçün bundan 800 milyon dollar azdır. İndi əsas problem xaricdən gələn vəsaitin də azalmağa doğru getməsidir. Bu vəsait azalmaqda davam edərsə, təcrid vəziyyəti Ermənistanı daha geniş miqyasda sarsıdacaq. Vəsaitin azalması isə qaçılmaz sayılır. Belə ki erməni diaspor təşkilatlarının Ermənistana yardımı son illər daim azalmaqdadır. Artıq Amerikadakı diaspor qurumları, demək olar ki, bu ölkəyə çox az miqdarda yardım göstərir. Rusiyadakı diaspor isə Moskvadan gələn göstərişlə Ermənistana pul ayırmır. Erməni mediası yazır ki, bu durumda ABŞ hökumətinin yardımı azaltması ölkə üçün daha bir zərbədir. Erməni ekspert Qarpis Paşoyan bu vəziyyəti Ermənistan hökumətinin ən böyük məğlubiyyətlərindən biri kimi qiymətləndirir: "Son iki ildə Vaşinqtonla konstruktiv dialoqa başlamaq üçün faktiki olaraq heç bir iş görülməyib. Üstəlik, Paşinyanın kabineti ardıcıl fəaliyyəti ilə Ermənistan-Amerika əməkdaşlığının ən pis və əlverişsiz mərhələsinin şahidi oldu.

Dövlətlərarası münasibətlər heç vaxt belə soyuq və qeyri-müəyyən olmayıb. Ermənistanın məğlubiyyəti, şübhəsiz ki, Azərbaycanın qələbəsidir. Bu vəziyyətin yaranmasına Azərbaycan lobbi təşkilatları da böyük rol oynayıb. Lakin Ermənistan və ümumilikdə erməni amili öz yerində olsaydı, Azərbaycan lobbisi heç vaxt bu şəkildə irəliləyiş əldə edə bilməzdi". O etiraf edir ki, Vaşinqton üçün Azərbaycanın həmişə Ermənistana nisbətən daha vacib əhəmiyyəti olub: "Bütün bunlarla yanaşı, bu geosiyasi üstünlük keçmişdə erməni amili olan tarazlıq manevri ilə müqavimətlə qarşılaşıb. Tramp prezident olduqdan sonra Azərbaycanın əhəmiyyəti iki dəfə artdı, tarazlaşdırıcı erməni amili isə zəiflədi. Yəni ABŞ-ın üstünlüyü, Azərbaycan lobbiçiliyinin fəallaşması və erməni amilinin passivləşməsi kontekstində Vaşinqton erməni tərəfinə ciddi zərbə vuran yeni bir siyasət ortaya qoydu".

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur.**